

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 111 (21.012)

13 iyun 2014-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


Azərbaycanın özü qədər əbədi

## Ulu öndər Heydər Əliyevin şah əsəri – müstəqil Azərbaycan

*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Azərbaycanın gələcəyi naminə fəaliyyətə hələ 1940-cı illərdən başlamışdır. XX əsrin 60-cı illərinin sonunda dahi rəhbər Heydər Əliyevin doğma xalqa həsr olunmuş ömür yolunda yeni, daha geniş, çoxşaxəli qaynar fəaliyyət dövrü başlandı: 1969-cu ildə, Azərbaycan SSR-də həyatın bütün sahələrində dərin tənəzzülün hökm sürdüyü bir şəraitdə Azərbaycan KP MK-nın birinci katibi seçildi. Belə bir vaxtda Onun rəhbərliyə gəlişi, sözün əsl mənasında, xalqın və Azərbaycanın yüksəlişi idi.*



Ulu öndər Heydər Əliyev böyük idarəçilik və dövlətçilik məktəbi keçmişdi. O, respublika rəhbərliyi ilə birbaşa bağlı olan siyasi məsələləri, dövlət idarəçiliyini, kadrların seçilməsi və yerləşdirilməsi prinsiplərini gözəl bilirdi. Ona görə də Azərbaycanın iqtisadiyyatında qısa müddətdə köklü dəyişikliklərin əldə olunmasına nail oldu. Respublikanın ictimai həyatının bütün sahələrində sürətli inkişaf mərhələsi başlandı. Ümummilli lider respublikanın iqtisadiyyatını inkişaf etdirməklə bərabər, cəmiyyətdə də saflığın, düzgünlüyün mübarizəsinə qalxmışdı.

Sovet dövrü müsəlman əhalisi olan respublikalarda sənayenin strateji sahələrinin inkişafına maneələr yaradılır, həmin respublikaların təhsil sistemi strateji təyinatlı ixtisaslardan kənarda qalırdı. Xalqımızın böyük oğlu Heydər Əliyev isə siyasi iradə və diplomatik məharət nümayiş etdirərək Azərbaycanda bu məsələlərin həllinə zamanın və məkanın verdiyi imkanlar dərəcəsində nail olmuşdu. Məsələn, Ukraynada inşası planlaşdırılan ittifaq əhəmiyyətli Kondisioner Zavodu Bakıda tikilmişdi. Bu, respublika büdcəsi üçün milyonlarla vəsait, minlərlə iş yeri demək idi. Ümummilli lider sonralar öz xatirələrində bu layihənin necə böyük çətinlik və zəhmət bahasına həyata keçirildiyini qeyd etmişdir. Azərbaycan gənclərinin strateji təyinatlı ixtisaslar üzrə təhsili də ulu öndər Heydər Əliyevin bilavasitə diqqət mərkəzində idi. 1970-ci ildən başlayaraq ümummilli liderin təşəbbüsü və təşkilatçılığı ilə minlərlə azərbaycanlı gənc Sovet İttifaqının yüksəksəviyyəli ali məktəblərinə göndərilir və onlar respublikanın sosial və iqtisadi inkişafına xidmət edən ixtisaslara yiyələnirdilər. Həmin dövrdə ümummilli lider uzaqgörənliklə milli hərbçi kadrların hazırlanmasının da qayğısına qalmış, Bakıda C.Naxçıvanski adına Hərbi Məktəbin açılmasına nail olmuşdu. Hazırda Azərbaycanın Silahlı Qüvvələrinə rəhbərlik edən hərbçilərin bir çoxu həmin məktəbin yetirmələridir. Ulu öndər kosmonavtların da dəstəsində azərbaycanlıların olmasını arzu edirdi. Dahi rəhbər Heydər Əliyev keçən əsrin 70-ci illərində Mərkəzi Komitənin müşavirələrinin birində azərbaycanlıların o zamankı SSRİ-nin təyyarəçilik məktəbində nümayəndəsinin olmamasını ələqədar təşkilatlara irad tutaraq demişdi: ***"Yerli əhalinin nümayəndələrini təyyarəçilik məktəblərinə göndərmək lazımdır. Təyyarəçilər hazırlamaq lazımdır. Bu günlərdə kosmonavtlar dəstəsinin tərkibi ilə maraqlandım. Dəstəyə bir nəfər də olsun, azərbaycanlının cəlb olunmamasından narazılığımı bildirdim. Mənə məlumat verdilər ki, kosmonavtlar dəstəsinə ancaq təyyarəçilik məktəbini bitirənləri götürürlər. Bu məsələ ilə də maraqlandım. Aydın oldu ki, SSRİ-nin təyyarəçilik məktəblərində Azərbaycanın yerli əhalisinin bir nəfər də olsun, nümayəndəsi təhsil almır. Bəs siz hara baxırsınız?"***

İqtisadi və sosial sahələrdə nailiyyətlər də göz qabağında idi: respublikada minlərlə təhsil, səhiyyə, elm ocaqları tikilmiş, kənd təsərrüfatı sürətlə inkişaf etmiş, neft sənayesi yenidən qurulmuş, yüzlərlə yeni sənaye və emal sahələri istifadəyə verilmişdi. Azərbaycan 1969-cu ildə SSRİ-nin geridə qalmış xammal bazası idisə, 1982-ci ildə artıq inkişaf etmiş sənaye ölkəsi idi.

Görkəmli dövlət xadimi Heydər Əliyev kommunist rejimin hökmranlığı dövründə doğma xalqına qarşı baş vermiş haqsızlıqlar əleyhinə yorulmadan mübarizə aparırdı. O, Vətənin bütün guşələrində Azərbaycanın haqqı tapdanmış böyük şəxsiyyətlərinin heykəllərinin ucaldılmasına nail oldu, repressiya qurbanı olmuş Hüseyn Cavidin nəşini Vətənə qaytardı, Nəriman Nərimanovun əzəmətli heykəlini Bakıda və Ulyanovsk şəhərində ucaltdı. Bu dövrdə ilk dəfə olaraq Azərbaycanın görkəmli sənət adamlarının böyük bir qrupuna –şairlərimizə, yazıçılarımıza, bəstəkarlarımıza "Sosialist Əməyi Qəhrəmanı" fəxri adının verilməsi də təkzibolunmaz tarixi faktdır. Ulu öndər doğma dilimizin Konstitusiyaya daxil edilməsinə, dövlət dili statusu qazanmasına nail oldu.

Xalqımızın böyük oğlu Heydər Əliyevin bu dövrdə həyata keçirdiyi bütün əzəmətli quruculuq işlərinin çox böyük tarixi əhəmiyyəti ondan ibarət idi ki, xalqımızda milli mənlik şüuru oyandı, azadlıq, müstəqillik duyğuları baş qaldırdı. Ulu öndərin ölkəmizə birinci rəhbərliyi dövründə Azərbaycanda çox güclü iqtisadi, elmi-texniki potensial yaradılmışdı və müstəqillik əldə olunduqdan sonra müstəqil Azərbaycan dövləti məhz bu iqtisadi bazanın üzərində quruldu. Bu, dahi Heydər Əliyevin Vətən və xalq qarşısında çox böyük xidməti idi.

Müdrik rəhbər Heydər Əliyevin fəaliyyətinin Naxçıvan dövrü muxtar respublikanın adından "Sovet Sosialist" sözlərinin çıxarılması, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının bərpa olunması, 20 Yanvar faciəsinə siyasi qiymət verilməsi, Naxçıvan əhalisinin SSRİ-nin saxlanılması barədə referendumdan imtina etməsi, 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan edilməsi, nəhayət, Azərbaycandan ayrı salınmış Naxçıvanda amansız məhrumiyyətlər, hərbi və iqtisadi blokada şəraitində Vətən torpağının erməni işğalından qorunub saxlanılması ilə əlamətdar oldu. Odur ki, ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü Azərbaycanın müstəqilliyinə və dövlətçiliyinə misilsiz xidmət nümunəsi kimi xarakterizə edilir.

1993-cü ildə Azərbaycan dövlətçiliyinin varlığı böyük təhlükə qarşısında idi. Məhz bu təhlükələr qarşısında Heydər Əliyev şəxsiyyəti duruş gətirə bildi. Onun zəkası qalib gəldi. Bu böyük şəxsiyyətin qədirbilən xalqımız qarşısında ən böyük xidməti budur ki, ən kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etdi, Azərbaycanın varlığını parçalanıb yox olmaq təhlükəsindən qorudu!

Xalqımızın böyük oğlu Heydər Əliyev Vətənimizdə sabitlik və əmin-amanlıq yaratdı, xalqımızda sabaha inam oyatdı.

Əsrin müqaviləsinin bağlanması, xüsusilə Bakı-Tbilisi-Ceyhan boru kəməri layihəsinin həyata vəsiqə alması ulu öndər Heydər Əliyevin xalqımız qarşısında daha bir möhtəşəm xidməti idi.

Məhz bu möhtəşəm layihələrin həyata keçirilməsi ümummilli liderimizi yalnız Azərbaycanda deyil, bütün regionda sülhün təminatçısı kimi tanıtdı. 1996-cı ildə keçirilən Lissabon Sammitində dünyanın 54 ölkəsinin Azərbaycanın mövqeyini dəstəkləməsi və işğalçı Ermənistanın təklənməsi də məhz ümummilli liderimizin müdrik siyasətinin nəticəsi idi.

Qeyd etmək lazımdır ki, Azərbaycan keçən əsrin sonlarından etibarən Avropanın və dünyanın nüfuzlu beynəlxalq təşkilatları ilə əməkdaşlıq edir, müştərək layihələrdə və müxtəlif tədbirlərdə fəal iştirak edir. Bunlar eyni zamanda Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq və Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həllinə nail olmaq üçün möhtəşəm beynəlxalq tribunalar idi və xalqımızın dahi rəhbərinin haqq səsi daim bu tribunalardan eşidilirdi.

Ümummilli liderimizin müdrik siyasəti sayəsində Azərbaycanda demokratik dövlət quruculuğunun uğurla həyata keçirilməsi üçün vacib dayanıqlı ictimai-siyasi sabitlik şəraiti yaradıldı, iqtisadi inkişafın əsasını qoyan yeni neft strategiyası reallaşdırıldı, iqtisadi və siyasi islahatlar mərhələsi başlandı, iqtisadi tənəzzülün qarşısı alındı və iqtisadi tərəqqinin əsası qoyuldu. Beləliklə, Azərbaycanın dünyaya inteqrasiya prosesi vüsət aldı. Bunlar böyük inqilabi nailiyyətlərdir və Azərbaycanın müstəqilliyini, dövlətçiliyini möhkəmləndirməyə xidmət edir. Amma başlanmış nəhəng işlər davam etdirilməli, möhtəşəm layihələr həyata keçirilməli idi. Bunun üçün Azərbaycanda əmin-amanlığa və inkişafa, regionda sülhə və təhlükəsizliyə xidmət edən Heydər Əliyev siyasətini günün reallıqları nəzərə alınaraq davam etdirəcək güclü liderə ehtiyac var idi. Müdrik rəhbər Heydər Əliyev xalqının problemləri ilə yaşayan bir lider kimi bütün bunları əvvəlcədən nəzərə almışdı və Onun möhtəşəm işlərini davam etdirəcək siyasi liderin yetişdirilməsinin qayğısına qalmışdı. Möhtərəm İlham Əliyev böyük məktəb keçmişdi. Buna görə də ulu öndər ona özü qədər inanırdı və özünün başa çatdıra bilmədiyi işləri, layihələri xalqın və Yeni Azərbaycan Partiyasının dəstəyi ilə İlham Əliyevin həyata keçirəcəyinə böyük ümid bəsləyirdi.

Ümummilli lider Heydər Əliyevin müdrik siyasətini uğurla və yaradıcılıqla davam etdirən ölkə başçısı cənab İlham Əliyev Azərbaycanda bütün dünyada tanınan və təqdir olunan iqtisadi inkişaf fenomeni yaratdı. Respublikamız dünyada iqtisadi artım sürətinə görə ön sıralarda gedən, əhalisinin sosial rifahı sürətlə yüksələn, yenilikçi və islahatçı ölkə kimi tanınır, Azərbaycanın beynəlxalq nüfuzu sürətlə artır. İqtisadi potensialın insan kapitalına çevrilməsi və Dağlıq Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli Azərbaycan Prezidentinin əsas prioritetləridir. Ölkə Prezidenti cənab İlham Əliyevin böyük siyasəti sayəsində Azərbaycan Avropa Şurası Nazirlər Kabinetinin Sədri vəzifəsini icra etməkdədir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun qeyd etdiyi kimi: ***"Ötən hər ili göz önünə gətirəndə bir daha əmin oluruq ki, ölkəmizdə Heydər Əliyev siyasi kursunun alternativi yoxdur. Bu kurs, bu yol Azərbaycanda sosial-siyasi inkişafın yeni tələblər baxımından təmin olunmasının yeganə düzgün yoludur. Bu yol ölkəmizin bu gününün, sabahının və gələcəyinin yoludur".***

*Dünyanın ən böyük azərbaycanlısı ulu öndər Heydər Əliyev deyirdi:* ***"Nə qədər ki Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam".*** *Müdrik şəxsiyyət Heydər Əliyev bütün ömrünü xalqına bağışladı, bütün həyatını Azərbaycana həsr etdi: onun üçün yaşadı və yaratdı. Ulu öndərin bizə bəxş etdiyi ən böyük əsər isə bugünkü müstəqil Azərbaycan dövlətidir.*

**Əbülfəz QULİYEV**
***AMEA-nın müxbir üzvü***

## "Heydər Əliyev lektoriyası"nın növbəti məşğələsi



*Dünən Naxçıvan Özəl Universitetində 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş "Heydər Əliyev lektoriyası"nın növbəti məşğələsi keçirilib. Məşğələni giriş sözü ilə ali təhsil ocağının rektoru İsmayıl Əliyev açıb.*

Universitetin Humanitar elmlər kafedrasının müəllimi, tarix üzrə fəlsəfə doktoru Elçin Zamanov "Heydər Əliyev və Azərbaycan" mövzusunda məruzə ilə çıxış edərək bildirib ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin bütün həyatı və siyasi fəaliyyəti Azərbaycanın müstəqilliyinə və hərtərəfli inkişafına həsr olunub. Ulu öndər Heydər Əliyev hələ keçən əsrin 60-cı illərindən başlayaraq daim ölkəmizin müstəqilliyini düşünür və bu yolda o dövr üçün çox çətin olan müəyyən addımlar atırdı. Gələcək müstəqil Azərbaycanın təməl daşlarının atıldığı həmin dövrlərdə yüzlərlə azərbaycanlı gənc ali təhsil almaq üçün keçmiş ittifaqın nüfuzlu təhsil ocaqlarına göndərilir, hərbçi kadrların yetişdirilməsinə diqqət artırılır, ölkədə səhiyyə, mədəniyyət, təhsil, idman obyektlərinin yaradılmasına ciddi fikir verilir, bütün sahələrin inkişafı diqqətdə saxlanılırdı. İmperiyanın süqutundan sonra ölkəmiz öz müstəqilliyinə qovuşdu. Ancaq bu müstəqilliyi qoruyub saxlamaq elə də asan olmadı. Bir tərəfdən daxili sabitliyin pozulması, digər tərəfdən ölkəmizə qarşı elan olunmamış müharibə Azərbaycanı məhvə doğru sürükləyirdi. Məhz belə bir dövrdə xalqın yeganə ümidi ümummilli liderin siyasi hakimiyyətə qayıtması idi. 1993-cü ilin 15 iyun tarixi Azərbaycanı məhv olmaqdan qurtardı.

Qeyd olunub ki, "Milli Qurtuluş Günü" kimi tarixə düşmüş həmin gün xalqımızın gələcəyə olan ümidlərini özünə qaytardı, hər şeydən əziz olan müstəqilliyimizin qorunmasına və möhkəmlənməsinə imkan verdi. Azərbaycan ümummilli lider Heydər Əliyevin sayəsində inkişaf və tərəqqi yoluna çıxdı. Artıq 20 ildən çoxdur ki, Azərbaycan bu yolla inamla gedərək inkişaf edir, yeni uğurlara imza atır.

Sonda tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş slaydlara baxıblar.

**Səbuhi HƏSƏNOV**

# Milli Qurtuluş Günü qeyd olunub

Yeni Azərbaycan Partiyası (YAP) Şərur Rayon Təşkilatında 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş "Böyük Qayıdışdan Milli Qurtuluşa" adlı tədbir keçirilmişdir. Tədbirdə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayevin məruzəsi dinlənilmişdir. Məruzəçi bildirmişdir ki, 1993-cü ilin iyun ayında xalqımızın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan ümummilli liderimiz Heydər Əliyev ölkəmizi parçalanıb məhv olmaq, Azərbaycanı dünya xəritəsindən silinmək təhlükəsindən xilas edərək böyük tarixi missiya yerinə yetirmiş və müstəqil Azərbaycan dövlətinin memarına çevrilmişdir. Ulu öndərimiz fəaliyyətində daim ümumxalq mənafeyindən çıxış etmiş və hakimiyyətdə olduğu hər iki dövrdə bu amal uğrunda bütün gücünü səfərbər edərək əlindən gələni əsirgəməmişdir.

Xalqımızın tarixinə "Milli Qurtuluş Günü" kimi daxil olmuş 15 iyun günü böyük əhəmiyyətə malik bir gündür. Həmin gün Azərbaycan xalqının ölüm-dirim mübarizəsində məhv olmaqdan qurtuluş günüdür. Bu qurtuluşu və nicatı isə bütün çətinlik və maneələrə baxmayaraq, xalqına bəxş edən ulu öndərimiz, dahi azərbaycanlı Heydər Əliyevdir. Ulu öndərimizin şərəfli həyat yolunu onun öz sözləri gözəl ifadə edir: ***"Mənim həyat amalım, bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub".***

"Ümummilli lider Heydər Əliyevin müdrik siyasəti nəticəsində ölkəmizdə hüquqi, demokratik dövlət quruculuğu sahəsində böyük işlər görülmüş, genişmiqyaslı islahatlar həyata keçirilmişdir. Bugünkü qüdrətli, bütün sahələrdə sürətli inkişaf yolu ilə irəliləyən Azərbaycana görə hamımız ulu öndərimizə minnətdarıq. Ümummilli liderin Azərbaycanın hərtərəfli inkişafına yönəlmiş siyasəti bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir", – deyən təşkilat sədri bildirmişdir ki, Naxçıvan Muxtar Respublikası da Milli Qurtuluşun işığında böyük və şərəfli yol keçməkdədir. Ali Məclis Sədrinin rəhbərliyi ilə ardıcıl olaraq həyata keçirilən genişmiqyaslı layihələr sayəsində milli ənənələrin qorunub saxlanılması şərtilə muxtar respublikamız əsaslı şəkildə yenidən qurulmuşdur. Bunu Şərur rayonunun timsalında da aydın görmək mümkündür. Qədimlik və müasirliyin işığında qurulub tikilmiş Şərur şəhəri də bənzərsiz gözəlliyə qovuşmuşdur. Genişmiqyaslı quruculuq prosesləri rayonun kəndlərini tanınmaz dərəcədə dəyişdirmişdir. Bütün bunlar isə ulu öndərin əbədiyaşar ideyalarının nəticəsidir.

Tədbirdə YAP fəalları İbrahim Hənifəzadə, Eldəniz Musayev, Zərifə Əliyeva və başqaları çıxış etmişlər. Onlar müdrik dövlət xadimi, dünya şöhrətli siyasətçi Heydər Əliyevin şərəfli ömrünün ayrı-ayrı məqamlarından danışmışlar. Vurğulanmışdır ki, Azərbaycanda dövlət müstəqilliyi haqqında Konstitusiya aktı 1991-ci ilin oktyabrında qəbul edilsə də, ölkəmiz xalqımızın böyük oğlu Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra həqiqi müstəqillik əldə etmişdir.



Yeni Azərbaycan Partiyası (YAP) Sədərək Rayon Təşkilatında 15 İyun – Milli Qurtuluş Günü münasibətilə "Qurtuluşdan başlanan yol" mövzusunda tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Arif Qasımov bildirib ki, 15 iyun günü Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb. Çünki ziddiyyətli ictimai-siyasi proseslərə biganə qalmayan ulu öndər Heydər Əliyev hələ Naxçıvanda fəaliyyət göstərdiyi müddətdə əsl vətənpərvərlik, liderlik qabiliyyəti ilə dövlət müstəqilliyinin qazanılması və milli özünüdərkin təmin olunması prosesində yaxından iştirak edirdi. Respublikamızda geniş vüsət almış milli azadlıq hərəkatı ilə eyni dövrdə xalqda milli heysiyyəti, özünüdərki daha da gücləndirən, milli dövlət rəmzlərinə hörmət təlqin edən genişmiqyaslı addımlar da məhz ulu öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi dövrdə atıldı. 1993-cü ilin iyununda – son dərəcə mürəkkəb bir dövrdə xalqın təkidli tələbi ilə respublika rəhbərliyinə qayıdan ümummilli lider Heydər Əliyev ictimai-siyasi sabitliyi təmin etməklə, vətəndaş qarşıdurmasını aradan qaldırmaqla, respublikanı parçalanmaq təhlükəsindən hifz etməklə, sözün əsl mənasında, milli qurtuluşu təmin etdi.

Arif Qasımov vurğulayıb ki, ümummilli liderimiz Heydər Əliyevin 1993-cü il iyunun 15-də xalqın təkidli tələbi ilə ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ölkəmizin çoxəsrlik tarixinə taleyüklü möhtəşəm siyasi hadisə kimi daxil olub. Məhz bu qayıdış sayəsində Azərbaycan üçün çoxdan hazırlanan məkrli planların qarşısına möhkəm sipər çəkildi, siyasi varlığımıza doğru uzanan xain əllər kəsildi, dövlətimizin müstəqilliyi əbədi, dönməz, sarsılmaz oldu. Ulu öndərin uzaqgörən siyasəti nəticəsində bütün problemlər aradan qaldırıldı, müstəqil Azərbaycan inkişaf etdi, möhkəmləndi və demokratik, dünyəvi bir dövlətə çevrildi.

Təşkilatın sədri ümummilli liderin siyasi kursunun bu gün dövlətimizin başçısı cənab İlham Əliyev tərəfindən böyük əzm və uğurla davam etdirildiyini, xalqımıza parlaq, firavan gələcək bəxş etdiyini bildirib.

Tədbirdə çıxış edən YAP fəalları ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında əvəzsiz xidmətlərindən danışıblar.

Qeyd olunub ki, ulu öndərin böyük siyasi iradəsi, qətiyyəti, müdrikliyi sayəsində ölkəmizin gələcək tərəqqisi üçün yaradılmış etibarlı bünövrə respublikamızın sağlam təməl üzərində sürətlə inkişafına şərait yaradıb.

Sonda bir qrup gəncə Yeni Azərbaycan Partiyasının üzvlük vəsiqələri təqdim olunub.

* * *

Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatı da Milli Qurtuluş Günü münasibətilə tədbir keçirib. Tədbiri giriş sözü ilə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qadir İbrahimov açaraq 15 iyun tarixinin müstəqillik tariximizə "Milli Qurtuluş Günü" kimi daxil olmasından, bu qurtuluşla dövlətçiliyimizin gələcək mövcudluğunun təməl daşının qoyulmasından danışıb. O deyib ki, ulu öndər Heydər Əliyev xilaskarlıq missiyası nəticəsində Azərbaycan dünyanın siyasi xəritəsindən silinmək təhlükəsindən, Xalq Cümhuriyyətinin acı taleyini yaşamaq aqibətindən qurtulub.



Bildirilib ki, 1993-cü ilin iyununda Azərbaycan "olum və ya ölüm" dilemması qarşısında qalmışdı. Məhz o zaman dahi rəhbər Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı ilə Naxçıvandan başlamış qurtuluş mübarizəsi özünün yeni – həlledici mərhələsinə qədəm qoydu, bütün Azərbaycanın qurtuluşu başlandı. Özünün vaxtilə qurub-yaratdığı Azərbaycanda ikinci dəfə rəhbərliyə gələn müdrik siyasətçi vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı.

Tədbirdə YAP Culfa şəhər 3 nömrəli tam orta məktəbin ərazi ilk təşkilatının sədri Kamran Cəfərovun, rayon təşkilatının Qadınlar Şurasının üzvü, Saltaq kənd ərazi ilk təşkilatının sədri Sevinc Mustafayevanın, rayon təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin üzvü, Yaycı kənd 1 nömrəli tam orta məktəbin müəllimi Əli İbrahimovun, Dizə kənd tam orta məktəbinin ərazi ilk təşkilatının sədri Ədalət Əhmədovun çıxışları olub.

Sonra Yeni Azərbaycan Partiyası sıralarına qəbul edilmiş bir qrup gəncə üzvlük vəsiqələri təqdim edilib.

Sonda Milli Qurtuluş Gününə həsr olunmuş slayd nümayiş etdirilib.

## Şərqşünaslıq İnstitutunda Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş elmi sessiya



***İyunun 11-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş elmi sessiya keçirilmişdir.***

AzərTAc xəbər verir ki, tədbiri açan institutun direktoru, Milli Məclisin deputatı Gövhər Baxşəliyeva elmi sessiyanın Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında Prezident İlham Əliyevin 2014-cü il 14 yanvar tarixli Sərəncamına əsasən təşkil edildiyini bildirmişdir. G.Baxşəliyeva qədim tarixə malik Naxçıvanın Azərbaycan dövlətçiliyi tarixində xüsusi yeri olduğunu qeyd etmişdir. O, naxçıvanlıların daim milli mübarizədə ön sıralarda olduğunu bildirmiş, bu qədim diyarın Azərbaycanın ayrılmaz bir hissəsi olduğunu vurğulamışdır.

Direktor müasir dövrdə ulu öndər Heydər Əliyevin dönməz iradəsi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında üçrəngli bayrağın Azərbaycanın dövlət rəmzi kimi qəbul edilməsinin ölkəmizdə müstəqil dövlətçiliyə misilsiz tarixi xidmətin ifadəsi olduğunu diqqətə çatdırmışdır.

Orta əsr mənbələrində Naxçıvan haqqında ətraflı məlumatlara rast gəlindiyini qeyd edən G.Baxşəliyeva bildirmişdir ki, institut profilinə uyğun olaraq, bu elm müəssisəsində həmişə görkəmli alim və mütəxəssislər tərəfindən qədim diyarın tarixinə və tarixi coğrafiyasının araşdırılmasına dair mühüm elmi-tədqiqat işləri aparılmışdır.

Tədbirdə AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli çıxış edərək bildirmişdir ki, Azərbaycanın çoxəsrlik dövlətçiliyi tarixində Naxçıvanın xüsusi yeri vardır. Naxçıvan tarixin müxtəlif dövrlərində, minilliklər boyu Azərbaycanın cənub-qərb ərazilərinin qorunub saxlanması və daha da möhkəmləndirilməsi uğrunda həmişə mübarizə aparmışdır.

Akademik tarixi faktlara əsaslanaraq Naxçıvanın zəngin və qədim tarixi, mədəniyyəti və müasir inkişafı ilə bağlı ətraflı məlumat vermişdir.

İsa Həbibbəyli qədim Naxçıvan diyarının, tarixinin, onun tarixi coğrafiyasının öyrənilməsi istiqamətində Gəmiqayada beynəlxalq ekspedisiyanın yerli və xarici mütəxəssisləri tərəfindən aparılmış elmi-tədqiqat işləri barədə də ətraflı məlumat vermişdir.

Diqqətə çatdırılmışdır ki, ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə AMEA-nın Naxçıvan Bölməsinin yaradılması bu diyar haqqında yeni tədqiqatların yerli materiallar və aparılmış ekspedisiyalar nəticəsində yeni əsərlərin ərsəyə gəlməsi ilə nəticələnmişdir.

İ.Həbibbəyli "Naxçıvan" sözünün etimologiyası haqqında da tarixi faktları diqqətə çatdırmışdır. Naxçıvanın misilsiz tarixi nailiyyətlərə imza atdığını xüsusilə vurğulayan akademik Naxçıvan Muxtar Respublikasının yaranmasının və keçdiyi şərəfli yolun Azərbaycan dövlətçiliyinin tarixi nailiyyəti olduğunu bildirmişdir.

İsa Həbibbəyli bu gün ölkəmizin digər bölgələri kimi, muxtar respublikanın da sürətlə inkişaf etdiyini xüsusi vurğulamış, Naxçıvanı möhtəşəm Yeni Azərbaycanın parlaq bir əsəri kimi səciyyələndirmiş, ölkə rəhbərliyinin diqqət və qayğısı, muxtar respublika rəhbərliyinin yorulmaz fəaliyyəti nəticəsində daha da inkişaf etdiyini qeyd etmişdir.

Sonra iştirakçıların "XVI yüzilliyin sonunda Osmanlı sənədlərinə görə Naxçıvan", "Leksikoqrafiya sahəsində Fəxrəddin Hinduşah Naxçıvani və Məhəmməd bin Hinduşah Naxçıvaninin xidmətləri" mövzularında məruzələri dinlənilmişdir.

***"Ensiklopedik bilik sahibi" adlanan elmi konfrans AMEA Naxçıvan Bölməsi, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Naxçıvan Dövlət Universiteti, Naxçıvan Muxtar Respublikasının Yazıçılar Birliyinin birgə təşkilatçılığı ilə keçirilib.***

## Abbasqulu ağa Bakıxanovun 220 illik yubileyinə həsr olunmuş elmi konfrans



Konfransı giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev qeyd edib ki, elmi tədbir Abbasqulu ağa Bakıxanovun 220 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən təsdiq edilmiş "Abbasqulu ağa Bakıxanovun 220 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı"na uyğun olaraq keçirilir.

Konfransda AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev "Abbasqulu ağa Bakıxanovun həyatı və fəaliyyəti", AMEA-nın müxbir üzvü Qadir Qədirzadə "Böyük mütəfəkkir", Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Sarvan İbrahimov "Abbasqulu ağa Bakıxanovun əsərlərinin tədqiqi və nəşri tarixi", Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigar "Abbasqulu ağa Bakıxanovun bədii yaradıcılığı", tarix üzrə fəlsəfə doktoru, dosent Elçin Zamanov "Vətən tarixşünaslığının görkəmli nümayəndəsi Abbasqulu ağa Bakıxanov", filologiya üzrə fəlsəfə doktoru, dosent İman Cəfərov "Abbasqulu ağa Bakıxanovun "Kəşfül-Qəraib" ("Qəribə kəşflər") əsərinin ideya-bədii xüsusiyyətləri" mövzularında məruzələrlə çıxış ediblər.

Qeyd edilib ki, ensiklopedik biliyə və əhatəli dünyagörüşə malik şəxsiyyət kimi tanınan Abbasqulu Ağa Bakıxanov elmin, mədəniyyətin müxtəlif sahələrinə aid zəngin bir irs yaradıb. Xalqın həyatında əsaslı dəyişikliklərə yol açmış maarifçilik ideyalarının bərqərar olmasında onun mühüm xidmətləri olub. Azərbaycanın tarixi keçmişinin müasir dünya elmi səviyyəsində yeni, sistemli tədqiqi mərhələsi A.Bakıxanovun adı ilə sıx bağlıdır. 1820-1830-cu illərdə çar Rusiyası ordusunda qulluq edən Abbasqulu ağa Bakıxanov Türkmənçay və Gülüstan müqavilələrinin imzalanmasında tərcüməçi kimi iştirak edib. O, "Gülüstani-İrəm" əsəri ilə Azərbaycan tarixşünaslığının əsasını qoyub. Ədib "Qüdsi" təxəllüsü ilə şeirlər də yazıb. Vurğulanıb ki, Abbasqulu ağa Bakıxanovun uşaqların əxlaqını tərbiyə edən və onlarda nəcib xasiyyətlərin yaranmasını təmin edən nəsihətamiz əsərləri bu gün də öz əhəmiyyətini qoruyub saxlayır.

Konfransda A.Bakıxanovun həyatı və yaradıcılığı haqqında fotoslayd nümayiş etdirilib.

**Xəbərlər şöbəsi**

# Naxçıvan Muxtar Respublikasının nümayəndə heyəti İran İslam Respublikasında səfərdə olmuşdur

*İyunun 10-da Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat və sənaye naziri Famil Seyidovun başçılıq etdiyi nümayəndə heyəti Araz Azad Ticarət Zonası ilə tanışlıq məqsədilə İran İslam Respublikasında səfərdə olmuşdur.*



Qonaqları İran İslam Respublikasının Culfa Gömrük Məntəqəsində Araz Azad Ticarət Zonasının rəhbəri Mohsen Khadem Arab-Baghi qarşılamışdır.

Sonra Araz Azad Ticarət Zonasının inzibati binasında nümayəndə heyətlərinin ikitərəfli görüşü olmuşdur. Görüşdə çıxış edən Araz Azad Ticarət Zonasının rəhbəri dəvəti qəbul etdiklərinə görə Naxçıvan nümayəndə heyətinə minnətdarlıq etmiş və ticarət zonası haqqında məlumat vermişdir. Qeyd olunmuşdur ki, 54 min hektar sahəsi olan ticarət zonası 2000-ci ildə yaradılmışdır. Haliyədə burada 82 istehsal müəssisəsi fəaliyyət göstərir. 100 yeni istehsal sahəsinin yaradılması istiqamətində isə işlər davam etdirilir. Ticarət zonasında Azərbaycanın Naxçıvan Muxtar Respublikasından olan sahibkarların fəaliyyəti və muxtar respublikada istehsal olunan məhsulların satışı üçün də hərtərəfli şərait vardır.

Nümayəndə heyətinə göstərilən səmimi münasibətə görə minnətdarlıq edən Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat və sənaye naziri Famil Seyidov əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş qarşılıqlı əlaqələrin bu gün uğurla inkişaf etdirildiyini diqqətə çatdırmış, muxtar respublikanın sosial-iqtisadi inkişafı haqqında ətraflı məlumat vermişdir.

Qeyd olunmuşdur ki, muxtar respublika iqtisadiyyatının aparıcı sahəsini özəl sektor təşkil edir. Ümumi Daxili Məhsul istehsalında sahibkarlığın payı 87,2 faizə bərabərdir. Hazırda Naxçıvanda 438 sənaye müəssisəsi fəaliyyət göstərir, 346 növdə məhsul istehsal olunur, 332 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir. 2013-cü ildə 37 xarici ölkə ilə ticarət əlaqəsi qurulmuş, bunun da nəticəsində muxtar respublikanın xarici ticarət dövriyyəsi 511 milyon ABŞ dollarına bərabər olmuşdur. Hazırda muxtar respublikada 86 xarici və birgə investisiyalı müəssisə fəaliyyət göstərir ki, onlardan 4-ü İran İslam Respublikasında olan iş adamlarına məxsusdur.

Famil Seyidov muxtar respublikada iqtisadi zonaların bir növü olan sənaye parklarının yaradılması istiqamətində müvafiq tədbirlərin həyata keçirildiyini bildirmiş, muxtar respublikanın gələcəkdə İran İslam Respublikasının sahibkarları ilə birlikdə layihələrin reallaşdırılmasında maraqlı olduğunu diqqətə çatdırmışdır.

Daha sonra nümayəndə heyəti Araz Azad Ticarət Zonasında azərbaycanlı iş adamı tərəfindən yaradılan polietilen torba istehsalı müəssisəsinə baxmış, Neftayırma və "Amiko" maşınqayırma zavodları ilə tanış olmuşdur.

Görüşdə Azərbaycan Respublikasının Təbriz şəhərindəki Baş Konsulluğunun əməkdaşı Şahin Əhmədov iştirak etmişdir.

**"Şərq qapısı"**

*İtaliya vətəndaşı Laura Peretto ixtisasca arxitektordur. O, İtaliyada nəşr olunan "İl Calendario del Popolo" jurnalında mütəmadi olaraq arxitektura və incəsənətlə bağlı məqalələrlə çıxış edir. Laura Peretto Bakı şəhərində keçirilən III Beynəlxalq Humanitar Forumda iştirak etmək və bu tədbir çərçivəsində Naxçıvan Muxtar Respublikasında səfərdə olmuşdur. Onun Naxçıvanla bağlı səfər təəssüratlarını oxuculara təqdim edirik.*

# Naxçıvan haqqında qeydlər




Azərbaycan Xəzər dənizinin qərb sahilində, Cənubi Qafqazda yerləşir. Zəngin tarixə və mədəniyyətə malik olmasına baxmayaraq, İtaliyada və dünyada az tanınır. Bu, bilavasitə onun əsr yarımdan çox rus imperiyasının, daha sonra isə SSRİ-nin tərkibində olması ilə əlaqədardır. Lakin 1918-1920-ci illəri əhatə edən müstəqillik dövrü istisnadır. Bu ikiillik müstəqillik dövründə müsəlman aləmində ilk dəfə olaraq demokratik dövlət – Azərbaycan Demokratik Respublikası yaradılmış, hətta İtaliyadan 30 il öncə kişi və qadın bərabərliyi, qadınlara seçki hüququ verən demokratik Konstitusiya qəbul edilmişdir. Azərbaycan qitəmizin cənub-qərbində yerləşdiyindən daha çox Avropaya aid edilir. Paytaxt Bakının arxitekturası yalnız sovet üslubunda deyil. Bu şəhər 1900-cü illər Avropa memarlıq məktəbinin nümunələri ilə yanaşı, yeni minillikdə ölkənin sürətli iqtisadi inkişafını əks etdirən göydələnlər və ən müasir tikililərini özündə birləşdirir. Azərbaycanda "Avroviziya" kimi bir çox məşhur və mötəbər beynəlxalq tədbirlər keçirilib. Bakı 2015-ci ildə ilk dəfə keçiriləcək Avropa Olimpia Oyunlarına ev sahibliyi edəcək.

"İl Calendario del Popolo" jurnalı Bakıda keçirilən və bütün dünyadan Nobel mükafatçıları, məşhur alimlər, vətəndaş cəmiyyətinin görkəmli nümayəndələri, siyasətçilər və jurnalistlərin iştirak etdiyi III Beynəlxalq Humanitar Forumuna dəvət olunmuşdu. Heydər Əliyev Mərkəzi tərəfindən irəli sürülən təşəbbüs iraqlı arxitektor Zaha Hadidin layihələşdirdiyi müasir binada həyata keçirildi. Bu tədbir çərçivəsində Azərbaycan Respublikasının eksklav ərazisi olan Naxçıvana da səfər etmək imkanı əldə etdik. Eksklav ərazi tam olaraq bir ölkəyə məxsus ərazi olmasına baxmayaraq, həmin ölkənin ərazisindən kənarda yerləşən və coğrafi sərhəd baxımından digər ölkələrlə həmsərhəd olan yerdir. Tarixi və ənənələri ilə zəngin, lakin İtaliyada hələ az tanınan Naxçıvan bəşəriyyət tarixində ilk yaşayış məskənlərindən və dünyanın ən qədim mədəniyyət mərkəzlərindən biridir. Azərbaycanın qərbində yerləşən bu diyar Ermənistan və İranla əhatə olunub, Türkiyə ilə 11 kilometr boyunca həmsərhəddir.

"Naxçıvan" sözünün mənşəyi barədə müxtəlif izahlar mövcuddur. Bəzi yerli mənbələrə əsasən, bu söz Nəqşi-Cahan, yəni "dünya nümunəsi" və ya "dünya bəzəyi" mənasını verir. Ən geniş yayılmış fikir isə bu torpağın adının Nuh Peyğəmbərlə bağlı olmasıdır. Əfsanəyə görə, "Naxçıvan" sözünün mənası "Nuh-çivan", yəni "Nuhun torpağı" deməkdir. Sahəsi 5,5 min kvadratkilometr olan (təxminən, Liquriya regionu böyüklükdə) bu ərazidə 410 mindən artıq əhali yaşayır. Zəngəzur dağları Ermənistan ilə, Araz çayı isə İranla sərhədi təşkil edir. Ən hündür zirvəsi 3904 metr yüksəklikdə yerləşən Qapıcıq dağıdır. Ən məşhur dağı isə 2415 metr yüksəklikdəki İlandağdır. Araz çayı üzərində yerləşən su anbarında elektrik enerjisi istehsal olunur.

Ordubad, Culfa, Şahbuz, Babək və Şərur rayonlarındakı 200-dən artıq mineral su mənbələri muxtar respublikanın ən əsas zənginliklərindən biri hesab olunur. Naxçıvanda, əsasən, quru kontinental iqlim tipi hakimdir. Florası çox zəngindir. (2782 növ bitki). Burada 400 böyük və kiçik çay mövcuddur. Ərazinin yalnız üçdəbir hissəsi Araz çayı ətrafı düzənlikdir. Qeyd edilməlidir ki, dünyadakı on bir iqlim tipindən doqquzu Azərbaycan ərazisində mövcuddur və demək olar ki, bu doqquz iqlim tipi məhz Naxçıvanda da var.

Azərbaycanlıların tarixi, elmi, mədəni, siyasi və hərbi irsinin böyük bir hissəsi məhz bu torpaqda formalaşıb. Naxçıvan ölkənin ən görkəmli şəxsiyyəti, SSRİ dövründən nüfuzlu siyasətçi kimi tanınan, müstəqil Azərbaycanın qurucusu və ölkə Prezidenti İlham Əliyevin atası ümummilli lider Heydər Əliyevin doğulduğu yerdir. Bu torpaq həmçinin Əcəmi (XII əsr) kimi memarlar, Marağa Rəsədxanasının banisi Nəsirəddin Tusi (XIII əsr) kimi məşhur alimlər, sufizm təriqətinin bir qolu olan hürufizmin yaradıcısı olan və Nəimi adlandırılan Fəzlullah Astarabadi (XIV əsr) kimi filosoflar, on doqquz-iyirminci əsrlərdə çar və qızıl orduya xidmət edən qəhrəman generallar, neftkimyası sahəsində böyük kəşf edən Yusif Məmmədəliyev kimi kimyaçılar, 30 yaşında dünyasını dəyişən istedadlı rəssam Bəhruz Kəngərli kimi sənətkarlar yetişdirmişdir. Teatr XX əsrdə muxtar respublikanın mədəni mühitinin inkişafında mühüm rol oynamışdır. Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Qulubəyov və Hüseyn Ərəblinski (ilk azərbaycanlı teatr rejissoru) bu sahənin inkişafında əməyi olan insanlardır. Naxçıvan eyni zamanda məşhur Duzdağ mədəninə görə də tanınır. Mağaralarda çıxarılan bu xüsusi növ duz yalnız öz unikal dadı ilə deyil, həmçinin yerli əhalinin dili ilə desək, müalicəvi xüsusiyyəti ilə də fərqlənir. Dünyanın bir çox ölkələrindən yalnız artrit deyil, astma və digər ağciyər xəstəliklərindən əziyyət çəkən insanlar müalicə üçün Naxçıvandakı Duzdağ Fizioterapiya Mərkəzinə gəlir.

Bu gün Naxçıvan muxtar respublika Ali Məclisinin Sədri Vasif Talıbovun rəhbərliyi ilə inkişaf edir, beynəlxalq əlaqələri genişlənir. Son on ildə əhalinin yaşayış səviyyəsində ciddi irəliləyişlər müşahidə olunur; regionda müasir hava limanı inşa edilmiş, ətraf mühitin və ekoloji tarazlığın qorunması məqsədilə xüsusi tədbirlər görülmüş, köhnə avtomobillərin istifadəsi məhdudlaşdırılmış və könüllülər tərəfindən iməcliklər təşkil olunmuşdur. Naxçıvanın iqlimi meyvə və tərəvəz yetişdirilməsi üçün əlverişlidir. Regionun təbiəti, adət-ənənələri və mədəniyyəti beynəlxalq turizmin artan marağına səbəb olur. Son zamanlar aparılan araşdırmalardan aydın olub ki, regionda Günəş və külək enerjisindən istifadə imkanlarını inkişaf etdirmək üçün potensial mövcuddur. Naxçıvan eksklav ərazi olduğundan ölkənin paytaxtı Bakıya quru yolla yalnız şimal-qərbdə yerləşən Türkiyə sərhədindən keçərək Gürcüstan üzərindən, eləcə də birbaşa İran vasitəsilə birləşir. Azərbaycan, Gürcüstan və Türkiyədə inşa olunan Bakı-Tbilisi-Qars dəmir yolu və gələcəkdə Qars-Naxçıvan dəmir yolu sayəsində Bakıya birbaşa səyahət etmək mümkün olacaqdır.

**Laura PERETTO**
*arxitektor*

# Vakant dövlət qulluğu vəzifələri üzrə müsahibə mərhələsi keçirilir

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən dövlət orqanlarında VI-VII təsnifata uyğun vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün 7 mart 2014-cü il tarixdə elan edilmiş müsabiqənin müsahibə mərhələsinə başlanılmışdır. Komissiyadan aldığımız məlumata görə, müvafiq keçid balını toplamış namizədlərdən 115 nəfər müsahibə mərhələsində iştirak etmək üçün sənəd təqdim etmişdir.

Məlumatda o da bildirilir ki, müsahibələr 27 dövlət orqanındakı vəzifələr üzrə keçirilir. Müsahibə mərhələsinə hazırlıq üçün namizədlərə seçdikləri vəzifə üzrə proqramlar verilmiş, müsahibə qrupunun üzvləri ilə seminar-treninq keçirilmişdir. Müsahibədə namizədə ixtisasına, iddia etdiyi vəzifənin qulluq funksiyasına, xarici dil biliklərinə, informasiya texnologiyalarından istifadə bacarığına uyğun suallar verilir.

Müsahibənin obyektiv və şəffaf keçirilməsi üçün komissiyada bütün texniki imkanlar təşkil edilmişdir. Müsahibə prosesi videoyazıya alınaraq onu kənardan izləmək imkanı yaradılmışdır. Müsahibə qrupunun tərkibində müstəqil ekspertlər, komissiyanın və dövlət orqanının nümayəndələri iştirak edirlər.

11-12 iyun 2014-cü il tarixlərdə keçirilən müsahibələr Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu, Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti, Dövlət Arxiv İdarəsi, məhkəmə orqanları, Dövlət Meliorasiya və Su Təsərrüfatı, Statistika, Torpaq və Xəritəçəkmə, Şəhərsalma və Arxitektura komitələri, Təhsil, Gənclər və İdman, Ekologiya və Təbii Sərvətlər, Rabitə və İnformasiya Texnologiyaları, Kənd Təsərrüfatı nazirliklərindəki vakant dövlət qulluğu vəzifələri üzrə olmuşdur.

Müsahibələr iyun ayının 19-dək davam edəcək.

# Əmək yarmarkasına 47 boş iş yeri çıxarılmışdı

*Dünən Kəngərli rayonunda növbəti əmək yarmarkası keçirilmişdir.*

Tədbiri giriş sözü ilə açan rayon Məşğulluq Mərkəzinin direktoru Məzahir Rüstəmov demişdir ki, əhalinin məşğulluğunun təmin edilməsində ən çevik yol olan əmək yarmarkalarından geniş istifadə edilir. Rayonlarda fəaliyyət göstərən məşğulluq orqanları bu işdə mühüm rol oynayırlar. İşəgötürənlərdən boş iş yerləri haqqında məlumatlar toplanılır, bu məlumatlar əmək yarmarkalarında işaxtaranlara təqdim edilir.

Kəngərli Rayon İcra Hakimiyyəti başçısının müavini Səxavət Həsənov bildirmişdir ki, muxtar respublikamızda insan amilinə qayğı prioritet vəzifəyə çevrilmişdir. Bu, əhalinin bütün təbəqələrinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərdə özünü bir daha göstərir. Qeyd olunmuşdur ki, Kəngərli rayonunda əmək yarmarkalarının keçirilməsinə başlanan vaxtdan ötən müddət ərzində yüzlərlə sakinin məşğulluq problemi öz həllini tapmışdır.

Tədbirdə işaxtaran vətəndaş Leyli Həsənova çıxış edərək yeni iş yerlərinin yaradılması üçün dövlətimiz tərəfindən keçirilən tədbirləri ölkə vətəndaşlarına göstərilən qayğı kimi dəyərləndirmişdir.

Əmək yarmarkasına 12 təşkilatdan 47 boş iş yeri çıxarılmışdı. Tədbirdə 12 nəfərə işə göndəriş verilmiş, 1 nəfər peşə hazırlığı kursuna cəlb olunmuşdur.

*Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi və Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin təşkilatçılığı ilə Şərur rayonunda nağdsız ödənişlə bağlı tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə Şərur Rayon İcra Hakimiyyəti başçısının müavini Rövşən İsgəndərov açmışdır.*

# Nağdsız ödənişlə bağlı maarifləndirici tədbirlər davam etdirilir

Tədbirdə Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin şöbə rəisi Mirhüseyn Seyidov nağdsız ödənişlərlə bağlı iştirakçılara məlumat vermişdir.

Sonra Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin şöbə rəisləri Mübariz Əhmədov "Nağdsız hesablaşmaların üstünlükləri", Rəşad Əliyev "Nağdsız ödənişlərin aparılması qaydaları", Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin aparıcı mütəxəssisi Elçin Əliyev "Plastik kartların təhlükəsizliyi və bank xidmətləri" mövzularında çıxışlar etmişlər.

Qeyd olunmuşdur ki, nağdsız ödəniş pul nişanlarından istifadə etmədən pul vəsaitlərinin bir bank hesabından digər bank hesabına köçürülməsi vasitəsilə həyata keçirilən hesablaşmadır. Hazırkı mərhələdə nağdsız əməliyyatlar, əsasən, POS-terminal adlanan aparatlardan və internetdən istifadə etməklə plastik kartların köməyi ilə aparılır. Bu gün muxtar respublikada, eləcə də Şərur rayonunda idarə, müəssisə və təşkilatlara ödənilən rüsumların, kommunal haqların və ticarət obyektlərində aparılan əməliyyatlara görə ödənişlərin POS-terminal və internet vasitəsilə aparılmasına hər cür şərait yaradılmışdır.

Tədbirdə nağdsız hesablaşmaların üstünlükləri, nağdsız ödənişlərin aparılması qaydaları, plastik kartların növləri, ticarət və xidmət obyektlərində POS-terminaldan istifadə edilməsi, internet vasitəsilə kommunal və digər xərclərin ödənilməsi üçün internet üzərindən onlayn ödənişlərin aparılması ilə bağlı iştirakçılar ətraflı məlumatlandırılmışlar.

**Xəbərlər şöbəsi**

İdman xəbərləri

## Yeniyetmə güləşçilərin muxtar respublika turniri



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Güləş Federasiyasının birgə təşkilatçılığı ilə 15 İyun – Milli Qurtuluş Gününə həsr edilmiş güləş üzrə yeniyetmələr arasında muxtar respublika turniri keçirilib.

Açılış mərasimində Dövlət himni səsləndirildikdən sonra çıxış edən gənclər və idman nazirinin müavini Məcid Seyidov, federasiyanın sədr müavini Yaşar Səfərov bu turnirin yeniyetmələr üçün nə qədər önəmli olduğunu vurğulayaraq idmançılara uğurlar arzulayıblar.

10 çəki dərəcəsində (42, 46, 50, 54, 58, 63, 69, 76, 84 və 100 kiloqram) keçirilən turnirdə müvafiq olaraq Bağır Zeynalov, Kamal Nəzərəliyev, Musa Həsənov, Ərkal Məmmədov, Əli Həsənov, Əli Haqverdiyev, Rauf Qurbanov, Əli Allahverdiyev, Bəylər Kərimov və Abdulla İsmayılov öz çəkilərində hamıdan güclü olduqlarını nümayiş etdiriblər.

Turnirin sonunda qalib olan güləşçilərə nazirlik və federasiya tərəfindən diplom və hədiyyələr verilib.

## Ən sərrast atıcılar mükafatlandırılıb

15 İyun – Milli Qurtuluş Gününə həsr edilmiş daha bir turnir Naxçıvan Atıcılıq Mərkəzində keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Atıcılıq Federasiyasının birgə təşkil etdiyi atıcılıq üzrə muxtar respublika turnirində 30-a yaxın idmançı qüvvəsini sınayıb. Turniri təşkil etməkdə məqsəd atıcılıq üzrə muxtar respublikanın yığma komandasını təşkil etmək, həmçinin gənclərin atıcılıq idman növünə marağını artırmaq idi.

Turnirdə bütün rəqiblərini üstələyən Mahmud Vəliyev qalib adını qazanıb. Digər iki pillədə isə Fərhad Əliyev və Hikmət Xəlilov qərarlaşıblar.

Sonda Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov və Atıcılıq Federasiyasının sədri Asəf Məmmədov qalib idmançıları kubok, diplom və hədiyyələrlə mükafatlandırıblar.

## Kross yarışı

Ötən gün 15 İyun – Milli Qurtuluş Gününə həsr edilmiş yüngül atletika üzrə turnirə yekun vurulub. Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi, Şahbuz Rayon Gənclər və İdman İdarəsi və "Rabitəçi" İdman Klubunun birgə təşkil etdiyi turnirdə 50-dən çox atlet qüvvəsini sınayıb. 2 kilometr kross yarışı üzrə keçirilən turnirdə oğlanlar və qızlar iştirak ediblər. Oğlanlardan Orucəli Orucov, qızlardan isə Zülfiyyə Mehdiyeva bütün rəqiblərini geridə qoyaraq finişə birinci çatıblar.

Sonda təşkilatçılar tərəfindən qalib olmuş idmançılara diplom və hədiyyələr təqdim edilib.

## 7 idmançıya kəmər təqdim olunub

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Karate-do Federasiyası Ordubad rayonunda 15 İyun – Milli Qurtuluş Gününə həsr edilmiş seminar təşkil edib. 40-a yaxın idmançının iştirak etdiyi seminarda 7 nəfər müxtəlif kəmər imtahanları verib. İmtahanları uğurla tamamlayan karateçilərə federasiya tərəfindən müəyyən edilmiş kəmərlər təqdim olunub.

## Şərur komandası turnirin qalibi oldu

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Paralimpiya Federasiyasının birgə təşkil etdiyi 15 İyun – Milli Qurtuluş Gününə həsr edilmiş futzal üzrə muxtar respublika turniri keçirilib. Olimpiya sistemi üzrə keçirilən turnirin açılış mərasimində çıxış edən gənclər və idman nazirinin müavini Məcid Seyidov və federasiyanın sədr müavini Elçin Nəzərəliyev muxtar respublikada məhdud fiziki imkanlı insanlara olan diqqət və qayğıdan danışıb, idmançılara uğurlar arzulayıblar.

Turnirin reqlamentinə əsasən, 6 komanda – "Şərur", "Şahbuz", "Culfa", "Ordubad", "Kəngərli" və "Babək" komandaları olimpiya sistemi üzrə mübarizə aparıblar. Yarımfinala kimi bütün rəqiblərini məğlub edən şərurlular bu mərhələdə daha ciddi rəqiblə üzləşiblər. Lakin penalti zərbələrindən sonra culfalı həmkarlarını məğlub edən "Şərur" komandası finalda oynamaq hüququ qazanıb. Digər finalçı isə "Şahbuz" komandası olub. İlk mərhələdə "Ordubad", ardınca "Kəngərli" komandalarını məğlub edən şahbuzlular həlledici qarşılaşmada "Şərur" komandası ilə üz-üzə gəliblər. Görüş heç-heçə başa çatdığından qalib penalti zərbələrindən sonra müəyyənləşib. Zərbələri daha səlis yerinə yetirən şərurlular yarışın qalibi olublar.



Bununla, 15 İyun – Milli Qurtuluş Gününə həsr edilmiş futzal üzrə muxtar respublika turnirində "Şərur" komandası 1-ci, "Şahbuz" komandası 2-ci, "Culfa" komandası isə 3-cü olub.

Sonda təşkilatçılar tərəfindən uğur qazanan komandalara diplom və hədiyyələr təqdim edilib.

## Şahmatçılarımızın uğurlu çıxışı

Naxçıvan şahmatçıları beynəlxalq turnirlərdə uğurlu çıxışları ilə yenə hamının diqqətini cəlb ediblər. Belə ki, 25-29 may tarixlərində Gürcüstan Respublikasının paytaxtı Tbilisi şəhərində keçirilən beynəlxalq yarışda Azərbaycan komandasının tərkibində iki naxçıvanlı şahmatçı – Nazlı Hümbətova və Zahid Allahverdiyev iştirak ediblər. 7 yaşlı uşaqlar arasında mübarizə aparan Z.Allahverdiyev yarışın qalibi olub.

Bununla yanaşı, 5-9 iyun tarixlərində Türkiyənin Manisa şəhərində keçirilən beynəlxalq turnirdə daha iki şahmatçımız iştirak edib və Elvin Namazlı reytinqsiz şahmatçılar arasında yarışı 3-cü pillədə başa vurub.

1-11 iyun tarixlərində isə Bakı şəhərində keçirilən Azərbaycan çempionatının final mərhələsində 3 zəka sahibimiz qüvvəsini sınayıb. Daha uğurlu təsir bağışlayan Sadiq Məmmədov çempionatı 4-cü yerdə başa vurub.

Qeyd edək ki, 16-27 iyun tarixləri arasında Yunanıstanın Kavala şəhərində məktəblilər arasında Avropa çempionatı keçiriləcək. Muxtar respublikamızı bu çempionatda Naxçıvan Şahmat Mərkəzinin 7 şahmatçısı təmsil edəcək.

**Ceyhun MƏMMƏDOV**

# Maarifləndirici tədbir

*Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında mülki müdafiə, fövqəladə hallardan qorunmaq və yanğın təhlükəsizliyi məsələləri ilə bağlı maarifləndirici tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə Naxçıvan Dövlət Musiqili Dram Teatrının direktoru, Azərbaycan Respublikasının xalq artisti Rza Xudiyev açaraq keçirilən tədbirin əhəmiyyətindən danışmışdır.*

Sonra Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə işinin təşkili şöbəsinin rəisi, polkovnik Emin Qasımov "Naxçıvan Muxtar Respublikası ərazisində ehtimal olunan təbii, texnogen xarakterli fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması işlərinin təşkili" mövzusunda məruzə ilə çıxış etmişdir. Qeyd olunmuşdur ki, bu halların aradan qaldırılması üçün vəzifəli şəxslərin üzərinə mühüm vəzifələr düşür. Belə ki, əvvəlcədən yanğın təlükəsizliyi, texnogen xarakterli hadisələrə hazır olmaq üçün qabaqlayıcı tədbirlər görülməlidir. Bu işlərə məsuliyyətsiz, laqeyd yanaşma böyük itkilərə, insan tələfatına səbəb ola bilər. Hər bir vətəndaş bu halların qarşısını almaq üçün müəyyən biliyə malik olmalıdır.

Sonra nazirliyin mülki müdafiə kursunun elmi-metodik işlər üzrə baş müəllimi, baş leytenant Şərif Əsədov, Yanğın nəticələri və yanğından mühafizə işinin təşkili bölməsinin baş zabiti, daxili xidmət baş leytenantı Telman Əhmədov, mülki müdafiə kursunun müəllimi Afaq Hüseynli çıxış edərək mülki müdafiənin xəbərdarlıq siqnalları, dəm qazı, ondan mühafizə üsulları, fövqəladə hallar zamanı davranış qaydaları və ilk tibbi yardımın prinsipləri haqqında məlumat vermişlər.

Tədbirdə iştirakçıların sualları cavablandırılmış və videomateriallar göstərilmişdir.

**Əli RZAYEV**

*Muxtar respublikamızda uzunömürlü ailələrə yüksək dövlət qayğısı göstərilir. Ailələrdə yubiley tədbirlərinin, o cümlədən ailələrin "gümüş", "qızıl" və "brilyant" toylarının qeyd olunması artıq ənənəyə çevrilib.*

## Uzunömürlü ailənin "brilyant" toyu qeyd olunub

Muxtar respublikamızda uzunömürlü ailələrdən biri də Şahbuz rayonunun Yuxarı Qışlaq kəndində yaşayan Kərimovlar ailəsidir. Bu ay ailənin evliliklərinin 60 ili tamam olur. Ailənin 2 oğlu, 3 qızı və 12 nəvəsi var.

İyunun 12-də Həsən Kərimov və Gülü Quliyevanın evliliklərinin 60 illiyi münasibətilə tədbir keçirilib. Tədbirdə Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova və Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Nurəddin Quliyev çıxış edərək ailəni evliliklərinin 60 illiyi münasibətilə təbrik edib, onlara cansağlığı və firavan həyat arzulayıblar.

Vurğulanıb ki, muxtar respublikamızda yaşayan ailələrin sosial müdafiəsinin gücləndirilməsi, onların həyat şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Bu qəbildən olan ailələr hər bir gənc ailə üçün örnək olmalıdır.

Sonda ailəyə hədiyyələr təqdim olunub.

Yubilyarlar və onların ailə üzvləri göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

Yeni nəşrlər

## Naxçıvan Muxtar Respublikası torpaqlarının tədqiqinə dair dəyərli kitab




Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun Torpaq ehtiyatları laboratoriyasının rəhbəri, kənd təsərrüfatı üzrə fəlsəfə doktoru, dosent Sahib Hacıyevin "Naxçıvan Muxtar Respublikası torpaqlarının münbitlik modeli" adlı monoqrafiyası rus dilində Almaniyanın "LAMBEPT Academic Publishing" şirkəti tərəfindən çap edilmişdir. Monoqrafiya AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin 7 yanvar 2014-cü il tarixli qərarı ilə çapa məsləhət görülmüşdür.

Monoqrafiyada ilk dəfə olaraq muxtar respublikanın üzümçülük şəraitində torpaqlarından səmərəli istifadə olunması və tərtib olunan torpaq xəritəsi haqqında ətraflı məlumatlar dünya ictimaiyyətinə çatdırılmışdır.

Monoqrafiyanın birinci fəslində ilk dəfə olaraq müəllif tərəfindən aparılmış çoxillik tədqiqatlar nəticəsində muxtar respublikanın təbii və mədəni bitkilər altında torpaqların formalaşmasına təsir göstərən fiziki-coğrafi və antropogen amillərə aydınlıq gətirilmişdir.

Əsərin ikinci fəslində Naxçıvan Muxtar Respublikasında torpaqların ekoloji qiymətləndirilməsinin nəzəri, metodik və metodoloji əsaslarına diqqət yetirilmişdir. Qeyd olunanlarla yanaşı, dünya miqyasında, keçmiş SSRİ və MDB ölkələrində bu sahəyə dair elmi baxışların inkişaf mərhələləri öyrənilərək təhlil olunmuş və onların nəticələri muxtar respublika ərazisindəki torpaqların bonitirovkası, ekoloji parametrlərin qiymətləndirilməsi və münbitlik modellərinin qurulması haqqında məlumatlar verilmişdir.

Üçüncü fəsildə isə Naxçıvan Muxtar Respublikasının landşaft komplekslərinin (yarımsəhra- friqanoid, çöl-dağkserofit, dağ-meşə və subalp-alp) ekoloji şəraiti haqqında məlumat öz əksini tapmışdır. Burada həmçinin ərazidə üzüm becərilən düzənlikdən yüksək dağlıq qurşağa qədər yayılan torpaqların tip və yarımtipləri də kifayət qədər öyrənilmiş və götürülmüş torpaq nümunələrinin analiz nəticələri təhlil olunaraq onlar əsasında relyef şəraiti nəzərə alınmaqla muxtar respublikanın 1:60000 miqyasında torpaq xəritəsi verilmişdir.

Monoqrafiyanın dördüncü fəslində muxtar respublikada üzümçülük şəraitində boz və şabalıdı torpaqların ekoloji parametrləri, fiziki və kimyəvi xüsusiyyətləri haqqında ətraflı məlumat verilir.

Beşinci fəsildə isə bütün elmi araşdırmaların nəticələri təhlil olunaraq torpaq qiymətləndirilməsi aparılmış, ümumiləşdirilmiş ekoloji şkala tərtib olunmuş və üzümaltı (boz və şabalıdı) torpaqların faktiki və optimal parametrləri müqayisəli şəkildə təhlil edilmişdir.

Həmçinin bu fəsildə muxtar respublikada üzümaltı torpaqlardan səmərəli istifadə olunması və münbitliyin artırılması üçün bir neçə tövsiyə və təkliflər verilmişdir.

***Varis QULİYEV***
***aqrar elmlər doktoru***

**İtmişdir**

"Vəlidağ" Məhdud Məsuliyyətli Cəmiyyətinin (VÖEN-0700327481) qeydiyyat şəhadətnaməsi, möhür və ştampı itdiyindən etibarsız sayılır.

**Bildiriş**

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi tərəfindən 18 sentyabr 2002-ci il tarixdə qeydiyyata alınmış "Naxçıvan Təbriz mehmanxanası" Açıq Səhmdar Cəmiyyətinin "Naxçıvan Təbriz mehmanxanası" Məhdud Məsuliyyətli Cəmiyyətə çevrilməsi ilə əlaqədar olaraq 7 iyun 2005-ci il tarixdə dövlət qeydiyyatına alınmış səhmləri dövriyyədən çıxarılaraq ləğv edilir.

**Allah rəhmət eləsin**

AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun direktoru Tariyel Talıbov və institutun əməkdaşları iş yoldaşları Yahya Mohbalıyevə, qardaşı
**HEYDƏRİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat kafedrasının müdiri Ağarza Rüstəmov və kafedranın əməkdaşları iş yoldaşları Akif Mədətova, qardaşı
**VASİBİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin İqtisad fakültəsinin dekanı Asif Şirəliyev, dekan müavini Teymur Abbasov və fakültənin professor müəllim kollektivi iş yoldaşları Akif Mədətova, qardaşı
**VASİBİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan şəhər M.Seyidov adına 15 nömrəli tam orta məktəbin kollektivi məktəbin direktoru Məmmədəli Rüstəmova, anası
**MİRVARİ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Elnur Kəlbizadə
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 520